# AZƏRBAYCAN RESPUBLİKASI VƏ AVROPA İTTİFAQI ARASINDA ƏLAQƏLƏRİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU

**Turan Qasımova**
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun “Azərbaycanın beynəlxalq əlaqələr tarixi” şöbəsinin fəlsəfə doktoru proqramı üzrə doktorantı (elmi rəhbər - akademik N.Ç.Axundova)*
*gasimova.turan@yandex.com*

**BETWEEN THE REPUBLIC OF AZERBAIJAN AND THE EUROPEAN UNION THE ROLE OF HAYDER ALIYEV IN THE DEVELOPMENT OF RELATIONS**

**Turan Gasimova**

**Summary**

In the 90s of the last century, when Azerbaijan restored its independence, complex and contradictory geopolitical processes took place in the world. Building an independent state in such conditions required an extremely wise, creative and flexible approach. The Republic of Azerbaijan, which gained independence, was forced to compare its internal potential with external influences for the success of state building. The favorable geographical position of our country, rich natural resources and the availability of a wide transport infrastructure further increase the importance of the Republic of Azerbaijan for Europe.

In cooperation with this prestigious organization, the Republic of Azerbaijan seeks to effectively develop the national economy, fully integrate the national economy into the European economic and financial space, constantly increase its role and importance in the pan-European processes. Multilateral cooperation with the European Union is defined as one of the important directions in the foreign policy doctrine of the Republic of Azerbaijan.

The Partnership and Cooperation Agreement, signed between the European Union and Azerbaijan in 1996, serves as the basis for such important processes as political dialogue, support for the development of democratic institutions, economic cooperation and investment promotion. The assistance provided by the European Union is aimed at accelerating the process of reforms in Azerbaijan and the implementation of various projects. All these factors contribute to the development of the Azerbaijani economy thanks to the successful policy of Heydar Aliyev.

**Keywords:** Republic of Azerbaijan, European Union, Heydar Aliyev, partnership, cooperation.

**AZƏRBAYCAN RESPUBLİKASI VƏ AVROPA İTTİFAQI ARASINDA ƏLAQƏLƏRİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU**

**Turan Qasımova**

**Xülasə**

Ötən əsrin 90-cı illərində, Azərbaycan müstəqilliyini bərpa etdiyi zaman dünya miqyasında mürəkkəb və ziddiyyətli geosiyasi proseslər baş verirdi. Belə bir şəraitdə müstəqil dövlət qurmaq son dərəcə müdrik, yaradıcı və çevik yanaşma tələb edirdi. Müstəqilliyinə qovuşmuş dövlətlər dövlət quruculuğunun uğurlu olması üçün xarici təsirlərlə daxili potensiallarını uyğunlaşdırmaq məcburiyyəti qarşısında qalmışdılar.

Ümummilli lider Heydər Əliyevin xarici siyasət xəttində beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi məsələlərinə çox böyük diqqət yetirilib. Heydər Əliyevin xarici siyasət kursunun digər bir mühüm prioriteti Avropa İttifaqı ilə münasibətlərin qurulması və inkişafı idi.

Avropa İttifaqı və Azərbaycan Respublikası arasında 1996-cı ildə imzalanmış “Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi” siyasi dialoq, demokratik institutların inkişafına dəstək, iqtisadi əməkdaşlıq və sərmayələrin təşviqi kimi mühüm proseslərdə çərçivə bazası rolunu oynamaqdadır. Avropa İttifaqının göstərdiyi yardım Azərbaycanda islahatlar prosesinin sürətləndirilməsinə, müxtəlif layihələrin həyata keçirilməsinə yönəldilmişdir. Bütün bunlar Heydər Əliyevin uğurlu siyasəti sayəsində Azərbaycan iqtisadiyyatının inkişafına xidmət edən amillərdəndir.

**Açar sözlər:** Azərbaycan Respublikası, Avropa İttifaqı, Heydər Əliyev, tərəfdaşlıq, əməkdaşlıq.

# РОЛЬ ГЕЙДАРА АЛИЕВА В РАЗВИТИИ ОТНОШЕНИЙ МЕЖДУ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКОЙ И ЕВРОПЕЙСКИМ СОЮЗОМ

**Туран Гасымова**

**Аннотация**

В 90-е годы прошлого века, когда Азербайджан восстановил свою независимость, в мире происходили сложные и противоречивые геополитические процессы. Строительство независимого государства в таких условиях требовало чрезвычайно мудрого, творческого и гибкого подхода. Азербайджанская Республика, которая обрела независимость, была вынуждена сопоставить свой внутренний потенциал с внешними воздействиями для успеха государственного строительства. Выгодное географическое положение нашей страны, богатые природные ресурсы и наличие широкой транспортной инфраструктуры еще больше повышают значение Азербайджанской Республики для Европы.

Соглашение о партнерстве и сотрудничестве, подписанное между Европейским Союзом и Азербайджаном в 1996 году, служит основой для таких важных процессов, как политический диалог, поддержка развития демократических институтов, экономическое сотрудничество и поощрение инвестиций. Помощь, оказываемая Европейским Союзом, направлена на ускорение процесса реформ в Азербайджане и реализацию различных проектов. Всё это факторы, служащие развитию экономики Азербайджана благодаря успешной политике Гейдара Алиева.

**Ключевые слова:** Азербайджанская Республика, Европейский Союз, Гейдар Алиев, партнерство, сотрудничество.

**Giriş.** Hər bir suveren dövlət öz müstəqilliyini möhkəmləndirmək və beynəlxalq münasibətlər sistemində layiqli yer tutmaq üçün bütün beynəlxalq və regional təşkilatlarla əməkdaşlıq qurmağa çalışmalıdır.

Xarici siyasət məqsədləri, hər şeydən öncə, milli maraqları əks etdirir, bu məqsədləri həyata keçirir, dövlətlər həm öz aralarında, həm də müxtəlif beynəlxalq təşkilatlarla qarşılıqlı münasibətlər sistemini genişləndirirlər [7, s. 259].

Keçid dövrünün çətinlikləri yenidən siyasi müstəqillik qazanmış Azərbaycan Respublikasının xarici siyasətinin təşəkkülünə ciddi təsir göstərmişdir. Azərbaycan Respublikasının gələcəyi ağıllı, balanslaşdırılmış xarici siyasətin həyata keçirilməsindən asılı idi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev (1923-2003) isə məhz bu cür siyasəti irəli sürürdü. H.Ə.Əliyev, 1993-cü ilin oktyabr ayının 10-da Prezident seçilməsi ilə bağlı olaraq keçirilmiş rəsmi andiçmə mərasimindəki çıxışında qeyd etmişdir: "Respublikamızın qarşısında duran əsas vəzifələrdən biri Azərbaycanın mənafeyini dünya miqyasında müdafiə edə bilən ağıllı, səriştəli xarici siyasətin yeridilməsidir. Qarşıda böyük vəzifələr durur. Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Vəzifə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlıfaydalı əlaqələr yaratmaq və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmlətmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir" [4, s. 177-178].

Avropa İttifaqı ilə çoxşaxəli əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasət doktrinasında mühüm istiqamətlərdən biri kimi müəyyənləşdirilmişdir. “Ölkəmizin əlverişli coğrafi mövqeyi, zəngin təbii sərvətləri və geniş nəqliyyat infrastrukturunun mövcudluğu Azərbaycan Respublikasının Avropa üçün əhəmiyyətini daha da artırır. Qeyd etmək lazımdır ki, Avropa İttifaqının rəhbərliyində təmsil olunmuş şəxslər bu amili dəfələrlə qeyd etmişlər” [3, s. 11].

Azərbaycan Respublikasının Avropa İttifaqı ilə münasibətlərinin yaradılması və inkişaf etdirilməsi Ümummilli lider Heydər Əliyevin adı və fəaliyyəti ilə bilavasitə bağlıdır. 1996-cı ilin aprel ayının 22-də Lüksemburq şəhərində imzalandıqdan, onu imzalamış bütün dövlətlər tərəfindən ratifikasiya edildikdən sonra - 1 iyul 1999-cu il tarixində qüvvəyə minmiş “Tərəfdaşlıq və Əməkdaşlıq haqqında Saziş” ikitərəfli münasibətlərin hüquqi bazasının əsasını təşkil etmişdir. Həmin sazişin imzalanması mərasimində çıxış etmiş Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev bu sənədi ölkəmizin Avropa məkanına inteqrasiyası istiqamətində mühüm addım kimi

qiymətləndirmişdir: "Azərbaycan Avropa ölkələri arasında inteqrasiya proseslərinin gələcəyinə böyük ümidlər bəsləyir və bərabərhüquqlu tərəfdaş kimi bu proseslərdə fəal iştirak edəcəkdir" [3, s. 29]. Bu sənəd qarşılıqlı əməkdaşlığı möhkəmləndirmək üçün müvafiq mexanizmlərin yaranmasını təmin etmiş, Azərbaycan Respublikası və Avropa İttifaqı arasında münasibətlərə yeni təkan vermişdir. Həmin saziş siyasi dialoq, insan hüquqları, ticarət, investisiya, iqtisadi, qanunverici, mədəni və s. əməkdaşlıq sahələrində genişmiqyaslı əməkdaşlığı nəzərdə tutur. Onun əsas məqsədlərindən biri Azərbaycan Respublikası qanunvericiliyinin Avropa İttifaqının qanunvericiliyinə uyğunlaşdırılmasıdır. Ulu öndər Heydər Əliyev qeyd edirdi ki: "Konkret nəticə nöqteyi-nəzərindən Avropa İttifaqı ilə əməkdaşlıq başqa beynəlxalq təşkilatlara nisbətən daha da nəticəlidir" [3, s. 29].

Avropa İttifaqının Cənubi Qafqaz bölgəsində siyasətini həyata keçirildiyi əsas alət TACIS proqramı idi. Onun əsas vəzifəsi inzibati-hüquqi islahatların həyata keçirilməsinə və sabit dövlət idarəçiliyinin yaradılmasına yardım etməklə keçmiş SSRİ-nin 12 ölkəsində (Azərbaycan, Ermənistan, Belarus, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Rusiya, Tacikistan, Türkmənistan, Özbəkistan və Ukrayna) və Monqolustanda vəziyyəti sabitləşdirməkdən ibarət idi. Azərbaycan Respublikasında bu proqram çərçivəsində ölkənin enerji sektorunun inkişafına dəstək verilmişdir. Xüsusilə neft-qaz sənayesində vergi və maliyyələşdirmə sahəsində qanunvericiliyin hazırlanmasına yardım göstərilmişdir. 1991-2001-ci illər ərzində Azərbaycan Respublikasında TACIS proqramı çərçivəsində yanacaq-energetika sektorunda 150-dən çox layihə həyata keçirilmişdir [8, s. 185].

H.Ə.Əliyev TRASEKA proqramının həyata keçirilməsinin xalqların rifahının yüksəlməsinə gətirib çıxaracağını, bu layihənin həyata keçirilməsində türk dövlətlərinin əsas rol oynadığını dəfələrlə qeyd etmişdir [2, s. 6].

Beynəlxalq konfransda TRASEKA layihəsinin işlərini planlaşdırmaq və həyata keçirilməsini əlaqələrndirmək məqsədilə Bakı şəhərində xüsusi "mənzil-qərargah"ın yaradılması qərara alınmışdır. 2001-ci ilin fevral ayının 21-də Bakı şəhərində TRASEKA Hökumətlərarası Komissiyasının Daimi Katibliyinin ofisi açılmışdır.

1993-cü ildə Brüssel tərəfindən hazırlanmış INOGATE proqramı keçmiş SSRİ respublikalarında neft və qaz kəmərlərinin idarə edilməsində iştirak etmək üçün yaradılmışdır. 1995-ci ilin noyabrında və 1996-cı ilin aprelində bu proqram çərçivəsində keçirilmiş ilk iclaslarda yeni müstəqillik qazanmış dövlətlərlə gələcək əməkdaşlığın formaları və istiqamətləri müəyyən edilmiş, layihənin əsas məqsədləri aydın şəkildə göstərilmişdir [10, s. 48].

Respublikasında həyata keçirdiyi proqramların fəaliyyətini təkmilləşdirmək məqsədilə 2001-ci ilin dekabr ayında Avropa Komissiyası Azərbaycan Respublikası ilə 2002-2006-cı illər üçün Əməkdaşlıq Strategiyasını təsdiqləmiş, bu strategiyanın həyata keçirilməsinin ümumi məqsədlərini, prinsiplərini və əsas istiqamətlərini müəyyən etmişdir. Qeyd etmək lazımdır ki, əgər əməkdaşlığın ilkin mərhələsində Avropa İttifaqı Azərbaycana əsasən humanitar və texniki yardım edirdisə, 2001-ci ildən sonra bu təşkilat ölkəmizdə struktur, iqtisadi və qanunvericilik islahatlarına daha çox diqqət yetirməyə başladı. Qısa müddət ərzində Azərbaycan Respublikası Avropa İttifaqının da yaxından əməkdaşlıqda maraqlı olduğu mühüm regional "oyunçuya" çevrilmişdir.

Uğurları artıq zamanın sınaqlarından çıxmış Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu xarici siyasət kursunu 2003-cü ildən etibarən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev davam etdirir. Bu, xarici investisiyalar, mehriban qonşuluq, Avroatlantik strukturlara inteqrasiya üçün "açıq qapı" siyasətidir. Avropaya inteqrasiyanın genişləndirilməsi siyasətinə sadiq olan Azərbaycan Respublikasının Avroatlantik məkanla sıx əməkdaşlığı milli xarici siyasətin əsasını təşkil edir. Son illər ərzində Azərbaycan Respublikası bu sahədə xeyli uğurlu nəticələr əldə etmişdir.

**İstifadə olunmuş mənbə və ədəbiyyat**


1. Azərbaycan - Avropa İttifaqı / http://republic.preslib.az/az_a7-3.html
2. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkdilli Dövlətlərin Başçılarının VI Zirvə Görüşündəki nitqi P // Dirçəliş – XXI, № 4, 2000.

**3.** Heydər Əliyev irsini araşdirma Mərkəzi. Bakı-Brüssel (Azərbaycan-Avropa İttifaqı 1münasibətləri). Bakı, 2011, 404 s.
**4.** Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. Bakı, “Azərbaycan” nəşriyyatı, 2005. 631 s.
**5.** Арабов Н. Великий Шелковый путь и его возрождение, Баку, Мутарджим, 2002, 228 с.
**6.** Де Кордье Б. Гуманитарная помощь Евросоюза и гражданская защита в Центральной Азии: прошлые и будущие кризисы // Fride. - Февраль 2013. - № 29.
**7.** Чернявский С.И. Внешняя политика Азербайджанской Республики (1988-2003). Монография. - Баку: Адилоглы, 2003.
**8.** The European Union Mine Actions in 2000—2002 // Official Document of European Commission. 2000—2002.
**9.** The TACIS Programme Annual Report 1999 // Report from the Commission. COM (2000) 835 final. Brussels. 20.12.2000.